# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

# ƏMR

№ 01

**Bakı şəhəri** “24” yanvar 2017 il

**Elektrik qurğularının istismara buraxılış aktının verilməsi ilə əlaqədar bəzi sənədlərin hazırlanması haqqında**

“Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli Qanununa 3 nömrəli əlavənin 57-ci maddəsinə əsasən “müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən güc həddindən yuxarı elektrik qurğularının istismara buraxılış aktı” sahibkarlıq fəaliyyətinə verilən icazələrdən biridir.

Adıçəkilən qanunda icazələrin verilməsi üçün bir sıra sənədlərin hazırlanması tələb olunur. Lakin qanunda həmin sənədlərin, o cümlədən icazə blanklarının formasının hazırlanması və təsdiq olunması qaydası müəyyən edilməmişdir.

Bundan başqa, elektrik qurğularının istismara buraxılış aktı verilməsi üçün elektrik qurğusunun “Elektrik qurğularının quraşdırılması qaydaları"nın tələblərinə cavab verməsi yoxlanılır. Lakin "Elektrik qurğularının quraşdırılması qaydaları" və elektrik qurğularının istismarı zamanı rəhbər tutulan "Elektrik qurğularının texniki istismar qaydaları" və "Elektrik qurğularının istismarında təhlükəsizlik texnikası qaydaları" sovet dövründə qəbul edilmişdir və rus dilindədir. Həmin texniki normativ hüquqi aktlar müasir dövrün tələblərinə cavab vermədiyindən respublikamızın qanunvericiliyinin, o cümlədən tikinti normalarının tələbləri nəzərə alınmaqla yeni layihələrin hazırlanması və təsdiqi zəruridir.

Qeyd olunanları nəzərə alaraq, adıçəkilən sənədlərin hazırlanması məqsədilə

**ƏMR EDİRƏM:**

1. Elektroenergetika şöbəsinin müdirinə (A.Mürsəliyevə) və Dövlət Enerji Nəzarəti İdarəsinin rəisinə (C.Hüseynova) tapşırılsın ki, 6 ay müddətində "Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu"nun əməkdaşlarını cəlb etməklə "Elektrik qurğularının quraşdırılması qaydaları", "Elektrik qurğularının texniki istismar qaydaları" və "Elektrik qurğularının istismarında təhlükəsizlik texnikası qaydaları" layihələrinin hazırlanmasını təmin etsinlər.

2. Dövlət Enerji Nəzarəti İdarəsinin rəisinə (C.Hüseynova) tapşırılsın ki, 1 ay müddətində aşağıdakı layihələrin hazırlanmasını təmin etsin:

2.1. istismara buraxılış aktı blankının formasının layihəsi;

2.2. istismara buraxılış aktının alınması üçün təqdim olunan ərizə layihəsi;

2.3. istismara buraxılış aktının alınması üçün təqdim olunan ərizəyə əlavə edilən sənədlərin siyahısı;

2.4. icazə şərtlərinin və onları müəyyən edən hüquqi aktların (o cümlədən, texniki normativ hüquqi aktlar) siyahısı.

3. Ümumi şöbə (E.Rzayeva) bu əmrin nazirliyin aparatının aidiyyəti şöbələrinə və Dövlət Enerji Nəzarəti İdarəsinə çatdırılmasını təmin etsin.

4. Bu əmrin icrasına nəzarət nazir müavini Natiq Abbasova həvalə edilsin.

Nazir Natiq Əliyev